1 - 2_Layout 1 14.04.2021 11:39 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 7 (597)

15 aprel 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib.**

Azərbaycanın Vətən müharibəsində Qələbəsinin rəsmiləşməsindən bir gün sonra – noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu deyib. Dekabrın 10-da Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilib. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürüb. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşıb: açıq səma altında nadir park salınıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti təqdim edildi.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçırdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalarından biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.






**Lövhənin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:**

- Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb.

Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya, Ermənistanın məğlubedilməz ordusu var. Azərbaycanlılar isə şəxsi maşınlarını qoyub, öz torpaqlarından çıxmışdılar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik.

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!

x x x

Xatırladaq ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törədib, o cümlədən, döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə Parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış "İsgəndər M" raketinin qalıqları da var.

**"İsgəndər M" raketinin qalıqlarına baxan Prezident İlham Əliyev dedi:**

- Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular. Haradandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər məlumat var. Sadəcə olaraq, biz rəsmi açıqlama gözləyirik. Hər kəs gəlib bunu görəcək. Bu, erməni vəhşiliyinin, hərbi cinayətin növbəti əyani sübutudur.

x x x

Diqqətə çatdıraq ki, nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da var. Onlar saz vəziyyətdədir! Düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar.

Vətən müharibəsində döyüş həm də informasiya cəbhəsində davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən – Azərbaycan Prezidentindən alırdı. Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr parkın ərazisindəki videozalda nümayiş etdirilir.

Parkın ərazisindəki hər bir element, demək olar, nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.

Hərbi Qənimətlər Parkının ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin, səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

Azərbaycan Ordusuna qarşı kustar üsulla hazırlanmış rels üzərində hərəkət edən iriçaplı minaatanlardan istifadə olunurdu. Özəllik ondan ibarətdir ki, bu minaatanlar relslə arxaya doğru çəkilir, atəş açılır, daha sonra relslə gizlədilirdi. Beləliklə, atəş nöqtəsini müəyyən etmək daha çətin olurdu, amma mümkünsüz deyildi.

Prezident İlham Əliyev bütün bu mühəndis-manea sistemləri, döyüş postu və əsgər kazarması ilə tanış oldu.

Qeyd edək ki, Hərbi Qənimətlər Parkı qazanılan tarixi Zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

x x x

Hərbi Qənimətlər Parkı ilə tanışlıqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev təltif olunan hərbi qulluqçularla görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış etdi.



**Sonra təltif olunanlar adından bir qrup zabit çıxış etdi.**

## "Vətən müharibəsində qazanılmış Qələbədə iştirakımla şərəf və qürur duyuram"

**Aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışı münasibətilə keçirilən mərasimdə Daxili Qoşunların Vətən müharibəsində döyüşmüş bir qrup hərbi qulluqçusu da iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qarabağ" ordeni, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunan hərbi qulluqçumuz kapitan Nurlan Məmmədov mərasimdə çıxış edib.**



- Cənab Ali Baş Komandan, məruzə edirəm ki, işğal altında qalmış ərazilərimizin azad edilməsi ilə əlaqədar Sizin əmrinizi, hər bir hərbi qulluqçu kimi, biz Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlıları da səbirsizliklə gözləyirdik. Qırx dörd günlük Vətən müharibəsində qazanılmış Qələbədə iştirakımla şərəf və qürur duyuram. Vətən torpağının hər qarışı uğrunda döyüşmək bizə də nəsib oldu və sonda şanlı Qələbə əldə edildi, Azərbaycanın tarixinə şanlı bir salnamə kimi həkk olundu. Biz bu müharibədə Qələbəni şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına qazandıq. Hər dəfə döyüşə atılanda bizi bir amal, bir məqsəd gücləndirirdi - qısa müddət ərzində düşmənə sarsıdıcı zərbə vurub torpaqlarımızı tapdaqdan azad edək. Vətən naminə qəhrəmanlıq göstərən, Vətəni həyatı, sağlamlığı bahasına müdafiə edən döyüşçü yoldaşlarımız həmişə bizim ürəyimizdə və yaddaşımızdadır. Onlar heç vaxt unudulmayacaq!

Bu gün, böyük azadlıq missiyasını yerinə yetirən bir qrup hərbi qulluqçumuz dövlətin orden və medalları ilə təltif olunur. Mənim xidmət etdiyim bölmə Füzuli, Şuşa, Kəlbəcər və Xocavənd istiqamətlərində gedən döyüşlərdə və bu rayonların azad olunmasında yaxından iştirak etmişdir. Həmin döyüşlərdə iştirakım dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş və mən "Qarabağ" ordeni ilə təltif olunmuşam.

Cənab Ali Baş Komandan, icazə verin, bu ali diqqətinizə görə Sizə dərin təşəkkürümü bildirim. Müharibədə ağır döyüşlərə atılarkən, Vətən torpağının hər bir qarışını azad edərkən, Siz Müzəffər Ali Baş Komandanın döyüş əmrini, qat-qat artan mənəvi dəstəyini hiss etmişik. Əmin ola bilərsiniz ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları qəhrəman Azərbaycan Ordusu ilə çiyin-çiyinə bundan sonra da Vətənimizin azadlığı və suverenliyi, xalqımızın təhlükəsizliyi naminə yüksək döyüş qabiliyyəti və möhkəm iradə nümayiş etdirəcək. Bu yolda canımızı belə əsirgəməyəcəyik.

Diqqətinizə görə sağ olun!

**"AZƏRTAC"ın materialları əsasında hazırlanıb.**

2_Layout 1 14.04.2021 10:59 Page 1



# DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ KEÇİRİLƏN TƏLİMLƏR DÖYÜŞ QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ BAŞLICA ROL OYNAYIR

Daxili Qoşunların hərbi qulluqçularının peşə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin, hərbi bilik və bacarıqlarının artırılması baxımından Təlim Mərkəzində hərtərəfli şərait mövcuddur. Sözügedən mərkəzdə qoşunların hissə və bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, onların qarşısında duran tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi, habelə rəhbər sənədlərin tələblərinə uyğun olaraq şəxsi heyətin döyüş təliminin təşkili məqsədilə təlim obyektləri mövcuddur. Burada Daxili Qoşunların Baş İdarəsinin, hərbi hissələrinin hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının şəxsi heyəti də atəş hazırlığının ən vacib hissəsi olan







praktiki atəş çalışmalarını yerinə yetirirlər.

Təlim mərkəzi rəisinin müavini mayor Umruz Məmmədov hərbi qulluqçuların praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından “Atəş hazırlığı”, “Mühəndis hazırlığı”, “Tək əsgərin döyüş təlimi”, “Xüsusi vasitələrin tətbiqi”, “Daxili Qoşunların taktiki hazırlığı” və “Taktiki hazırlıq” şəhərciklərinin praktiki əhəmiyyətini vurğuladı. O, səhra şəraitində nəzəri biliklərin aşılanması üçün hər cür şəraitin olduğunu da sözlərinə əlavə etdi. Təlim Mərkəzində bu məqsədlə yaradılan tədris siniflərinin şəxsi heyətin istifadəsində olduğunu bildirdi.

### Bölük öz təyinatı üzrə vəzifələri uğurla yerinə yetirir

Yaradılan hərtərəfli şəraitin, eləcə də Təlim Mərkəzinin yüksək döyüş hazırlığının qorunub saxlanılmasını buradakı təminat bölüyü həyata keçirir. Bölük komandiri kapitan Ülvi Cəfərov əvvəlcə bölüyün fəaliyyətindən danışdı. Bildirdi ki, təminat bölüyünün şəxsi heyəti üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək, tapşırıqları uğurla icra edir. Təlim Mərkəzinin etibarlı mühafizəsi, hissə və bölmələrin praktiki atışlarının təmin edilməsi, atış sahələrinin daim hazır vəziyyətdə olması, təlim şəhərciklərinin, o cümlədən, tədris siniflərinin hazırlanması, ərazinin səliqə-sahmanının qorunub saxlanılması təminat bölüyünün əsas vəzifələrindəndir.

Bölük komandiri kapitan Ü.Cəfərov söhbət zamanı qarşıya qoyulan tapşırıqların əhəmiyyətini diqqətə çatdırdı. Məlumdur ki, məsuliyyətli vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, atəş hazırlığının yüksək, nizam-intizamının qənaətbəxş olması vacib amillərdir. Bölük komandiri hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini də önə çəkdi. Keçirilən məşğələlərin şəxsi heyətin hərbi bilik və bacarığının artırılmasına təkan verdiyini dedi.

Bölük komandiri funksional vəzifələrini layiqincə yerinə yetirən leytenant Sədi Xəlilovun komandiri olduğu operatorlar taqımının fəaliyyəti barədə də danışdı. Gündəlik olaraq operatorlar taqımının şəxsi heyəti ilə ixtisasına uyğun məşğələlərin keçirildiyini bildirdi.

Leytenant S.Xəlilov qeyd etdi ki, taqımın əsas fəaliyyəti atış meydanının vaxtında hazır olması, hədəfqaldırıcı cihazların və idarəetmə avadanlıqlarının praktiki atəş çalışmasına hazırlanması, praktiki atışların keçirilməsinin təmin edilməsi, atışdan sonra hədəfqaldırıcıların növbəti praktiki atışlar üçün hazırlanması, onların sazlığı, qorunub saxlanılması, bunlarla yanaşı, elektrik təhlükəsizlik qaydalarına riayət edilməsi diqqətdə saxlanılır. Bütün bu işlərin görülməsində tir rəisi baş çavuş Nəbi Məmmədov, atış meydanı rəisi baş çavuş Tacəddin Cahangirov, baş operator-elektrik baş əsgər Balaxan Güliyevin xidməti təqdirəlayiqdir.

Şəxsi heyətin nizam-intizamının möhkəmləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Bunun üçün hərbi qulluqçularla fərdi söhbətlər aparılır, onların mənəvi-psixoloji durumları öyrənilir.

Bölüyün müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Cabir Nuriyev, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından çavuş Səid Poladlı, baş əsgər Səxavət Babayev, əsgər Oruc Kərimov yüksək döyüş hazırlığı, nizam-intizamı, nümunəvi xidməti ilə fərqlənirlər.

### Şəxsi heyət yüksək kalorili qida ilə təmin olunur

Təlim Mərkəzinin komandanlığının diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

Təlim Mərkəzinin yeməkxanası şəxsi heyəti gün ərzində üç dəfə kalorili qida ilə təmin edir. Hərbi qulluqçuların milli xörəklərdən ibarət keyfiyyətli qida ilə təmin olunması üçün burada hər cür şərait yaradılıb.

Təlim mərkəzi rəisinin maddi-texniki təminat üzrə müavini mayor



Sənan İsgəndərov hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün lazımi tədbirlər görüldüyünü bildirdi.



Mayor S.İsgəndərov qeyd etdi ki, bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə qidalanma zamanı hərbi qulluqçular arasında sosial məsafənin gözlənilməsinə riayət edilir.

Hər qida qəbulundan sonra masaların, mətbəx qablarının və avadanlıqlarının yuyulmasına, dezinfeksiya tədbirlərinə nəzarət gücləndirilir.

Mayor S.İsgəndərov görülən işlərdə yeməkxana rəisi çavuş Asiman Cəfərovun əməyini xüsusilə vurğuladı. Əlavə olaraq, qidaların keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlar Zaman Zamanlı, Hikmət Hüseynov, işçiaşpazlardan Vüsalə Məhərrəmova, Rəfiqə Ömərovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Sadıq Rəfiyev**

# Post-patrul xidməti bölməsinin şəxsi heyəti əzmkarlığı ilə fərqlənir

16075 saylı hərbi hissənin yüksək döyüş hazırlığı, intizamı ilə fərqlənən, kapitan Emil Nadirovun komandiri olduğu post-patrul xidməti bölməsi qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələrək, dislokasiya ərazisində ictimai təhlükəsizliyin qorunub saxlanılmasında yaxından iştirak edir.

Sözsüz ki, əldə olunan nailiyyətlərdə bölmə komandirinin bilik və bacarığı, həmçinin, kollektivin əzmkarlığı mühüm rol oynayır.





Kapitan E.Nadirov bildirdi ki, şəxsi heyət üzərinə düşən vəzifələri uğurla yerinə yetirməklə bərabər, döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün daima öz üzərində çalışır. O qeyd etdi ki, hərbi qulluqçuların yüksək döyüş və mənəvi-psixoloji hazırlığına xüsusi diqqət yetirilir. Hərbi qulluqçuların ruh yüksəkliyi döyüş hazırlığının qorunub saxlanılmasına birbaşa təsir edir.

Komandir şəxsi heyətin hər zaman qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə hazır olduğunu nəzərə çatdırdı. Təhkim olunmuş döyüş texnikasının, silah-sursatın və aidiyyəti əmlakın vəziyyətinin qorunub saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də bu istiqamətdə əsas məqamlar kimi vacibdir.

Xüsusi vasitələrin tətbiqi dəstəsi komandirinin müavini-qərargah rəisi mayor Elşad Məmmədovla həmsöhbət olduğum zaman bildirdi ki, bölmənin şəxsi heyətinin döyüş təlimi prosesində qoşunların taktiki hazırlığı üzrə elementlərin mənimsənilməsi və məşq etdirilməsi vacib istiqamətdir.



Post-patrul xidməti bölməsi bu günə qədər bir neçə dəfə öz təyinatından irəli gələn xidməti vəzifələrin icrasına cəlb olunub.

Hal-hazırda isə ölkəmizdə tətbiq olunan karantin rejimi tədbirləri ilə əlaqədar bölmənin şəxsi heyəti daxili işlər orqanları ilə birlikdə Sumqayıt şəhərində post-patrul xidmətinin aparılmasına cəlb olunur.

Bölmə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Eyvaz Zərbəliyev vurğuladı ki, xidmətin uğurlu təşkilini, şəxsi heyətin peşəkarlığını şərtləndirən mühüm amillərdən biri də hərbi qulluqçuların döyüş ruhunun artırılmasıdır. Bunun üçün onların mənəvi-psixoloji durumunun qənaətbəxş olması zəruridir: “Kiçik komandirlərin, bölmədə və qruplarda olan təbliğatçıların rolunu da qeyd etmək yerinə düşər. Gizir Eldəniz Qasımov, baş çavuşlar Elşən Ağanmədov, Əliheydər Şeydayev, Ramin Şaxayev bölmənin nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçularındandırlar. Onlar kollektiv arasında ciddi hərbi intizamın yaradılmasına, bölmənin müsbət göstəricilər qazanmasına öz töhfələrini verirlər”.

**kapitan Sadıq Rəfiyev**

# “BAŞLICA AMALIMIZ DÜŞMƏNİ DİZ ÇÖKDÜRMƏK İDİ”

Vətən müharibəsində silaha sarılaraq torpaqlarımızın müdafiəsinə yollanan xüsusi təyinatlıların arasında Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində xidmət edən gizir Pərvin Rəhimli və çavuş Həsən Şəmşiyev də bir döyüşçü kimi öz layiqli töhfələrini veriblər.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Surxay Gülməmmədov adları qeyd olunan hər iki hərbi qulluqçunun nümunəvi xidmətləri və şəxsi intizamları ilə yanaşı, Vətən müharibəsi zamanı döyüş tapşırıqlarının icrasında da fərqləndiklərini söylədi.

Gizir Pərvin Rəhimli 1992-ci il sentyabrın 23-də Göygöl rayonunun Yeni Zod kəndində anadan olub. Orta təhsilini Göygöl rayonu Səməd Vurğun adına 3 saylı tam orta məktəbdə alan Pərvin 2010-cu ildə həmin məktəbi bitirərək, Bakı Dövlət Universitetinin regionşünaslıq fakültəsinə qəbul olunub. 2014-cü ildə Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb. Hərbçi ailəsində anadan olması onun həyat yolunda dərin iz buraxıb. Birinci Qarabağ müharibəsi iştirakçısı olan atası Arif Rəhimovun döyüş xatirələri, hərbi peşənin sirləri barədə söhbətləri Pərvində bu peşəyə olan marağı daha da artırıb. Artıq əsgəri xidmətdə olarkən öz həyat yolunu hərbçi peşəsinə həsr edəcəyini yəqinləşdirən gənc 2015-ci ildə Daxili Qoşunların 17072 saylı hərbi hissəsində gizir hərbi rütbəsində həqiqi hərbi xidmətə qəbul olunub.

2016-cı ildən hərbi hissənin xüsusi təyinatlı dəstəsində yarımqrup komandiridir. Gizir P.Rəhimli Vətən müharibəsində bütün xüsusi təyinatlılar kimi silaha sarılaraq döyüş meydanında cəsurluq nümayiş etdirib. Hərbi hissədə xidməti ezamiyyətdə olarkən onun döyüş yolu haqqında söhbətimiz maraqlı məqamları ilə yadda qaldı. Vətən torpağının azad olunması uğrunda gedən müharibədə iştirakın şərəfli, qürurverici olduğunu və bu günü bütün hərbçilərin səbirsizliklə gözlədiyini nəzərimizə çatdıran hərbi qulluqçumuz Birinci Qarabağ savaşında qəhrəmancasına döyüşərək yaralanan atasının yarımçıq qalan missiyasını başa vurduğunu söylədi: “Döyüş sınağı deyərdim ki, həyatda ən çətin sınaqdır. Ölümü göz önünə gətirib, ən son nəfəsində olsa belə yağı düşmənə ağır zərbələr vurmaq barədə düşünürsən. Mən şəxsən döyüşçü yoldaşlarım adından deyə bilərəm ki, başlıca amalımız nəyin bahasına olursa-olsun, düşməni diz çökdürmək idi.

Ən ağır günlərimizi bir səngərdə çiyin-çiyinə vuruşduğumuz silahdaşlarımızın göz önündə yaralandığı və ya şəhid olduğu anlarda yaşadıq. Onlar öz ölümləri ilə ölümsüzlüyü qazandılar, qələbə sevincini xalqımıza yaşatdılar. Xalq heç zaman öz qəhrəmanlarını unutmur. Hər bir şəhidin ruhu qarşısında baş əyir, qazilərimizə isə Allahdan şəfa diləyirik”.

Qeyd edək ki, gizir P.Rəhimli döyüş tapşırıqları yerinə yetirilən istiqamətlərdə ərazilərimizin düşməndən azad olunmasında fərqlənərək, “Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Xüsusi təyinatlı dəstənin döyüş əməliyyatlarında iştirak edən digər hərbi qulluqçusu çavuş Həsən Şəmşiyev 1992-ci il aprelin 4-də Ağstafa rayonunun Soyuqbulaq kəndində anadan olub. Məmməd Omarov adına kənd məktəbində orta təhsilə yiyələnən Həsən 2010-cu ildə məktəbi bitirib. Müddətli həqiqi hərbi xidmətini 2010-2012-ci illərdə Müdafiə Nazirliyinin Beyləqan rayonundakı “N” saylı hərbi hissəsində keçib. Daxili Qoşunlarda xidmətə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 2013-cü ildən başlayıb. 2014-cü ildən bu günə kimi hərbi hissənin xüsusi təyinatlı dəstəsində atıcıdır.

O da digər xüsusi təyinatlılar kimi Vətən müharibəsində iştirak edərək, düşmənə qarşı qətiyyətlə vuruşub və Şuşa istiqamətində gedən döyüşdə yaralanıb.

Çavuş H.Şəmşiyev o günləri böyük qürur hissi ilə xatırladığını və şəhid yoldaşlarının qisasını lazımi şəkildə aldıqlarını söylədi: “Ürəyi Vətən sevgisi ilə döyünən hər bir azərbaycanlı müqəddəs torpaqlarımızın düşməndən azad olunacağı günü səbirsizliklə gözləyirdi. Çox şükür, Respublika Prezidenti, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında bir xüsusi təyinatlı kimi döyüşlərə qatılmaq mənə də nəsib oldu. Qalib Ordunun qazi hərbi qulluqçusu olmaq sadəcə qürurvericidir”.

Hər iki silahdaşımıza bundan sonrakı xidməti fəaliyyətində yalnız uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 14.04.2021 11:07 Page 1



*Şəhidlərimiz*

# Vətən müharibəsində Daxili Qoşunların ilk şəhidi kimi adını tarixə yazdı...

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda 44 gün davam edən Vətən müharibəsində əsl qəhrəmanlıq nümunələri göstərərək, dəmir yumruqla erməni işğalçılarının başını əzərək, düşməni diz çökdürən hərbi qulluqçularımızın şərəfli döyüş yolunu öyrənmək və cəmiyyətdə geniş təbliğ etmək hər birimizin vətənpərvərlik borcudur.

Vətən uğrunda son damla qanınadək döyüşərək şəhidlik zirvəsinə ucalmış cəsur silahdaşlarımızdan biri də gizir Abdullayev Sərxan Elxan oğludur.

Gizir Sərxan Abdullayev 1988-ci il noyabrın 2-də Qazax şəhərində hərbçi ailəsində anadan olub. Elxan Abdullayevin və Surayə ananın böyüdüb tərbiyə etdiyi üç oğul övladından (Sərxan, Elman və Murtuzəli) biri, həmçinin, ailənin ilki idi Sərxan...

Orta təhsilini Qazax şəhərindəki Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseydə alıb. Müddətli həqiqi hərbi xidmətini 2007-ci ilin yanvar ayından 2008-ci ilin iyul ayınadək Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin komendant bölüyündə keçib. Qısa fasilədən sonra, yeni 2008-ci ilin noyabr ayından Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu yerinə yetirməyə başlayıb. Hərbçi kimi atasının yolunu davam etdirmək arzusunda olan silahdaşımız xidmət etdiyi dövrdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təşkil olunan 6 aylıq "Gizir hazırlığı kursu"nu bitirməyə müvəffəq olub. "Gizir" hərbi rütbəsində yenidən 17074 saylı hərbi hissədə xidmətini davam etdirən S.Abdullayev 2013-cü ilin fevral ayından etibarən xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifəsini şərəflə yerinə yetirib. Bununla yanaşı, Sərxan əsl xüsusi təyinatlıya xas olan yüksək döyüş hazırlığı və əzmkarlığı ilə qazandığı "Zoğalı beret"i də hər zaman böyük qürur hissi ilə daşıyıb.

S.Abdullayev 2014-cü ilin sentyabr ayından dekabr ayınadək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında "Gizir komando təməl kursu"nu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib.



Nümunəvi yarımqrup komandiri kimi bilik və bacarığı sayəsində böyük rəislərin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağı bacarıb. Həmçinin, xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı və qüsursuz xidmətilə fərqlənən cəsur hərbi qulluqçumuz 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

17074 saylı hərbi hissədə "Qartal" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Zəfər" ordeni, "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmiş mayor Sahib İbrahimov (Vətən müharibəsi zamanı Cəbrayıl rayonu ərazisində gedən döyüşdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi yarımqrup komandirinin nümunəvi xidmətini bu gün də böyük qürur hissi ilə qeyd edir: "Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində dəstəmizin 5 nəfər hərbi qulluqçusu qəhrəmancasına vuruşaraq şəhid olub. Onlardan biri də öz igidliyi və vətənpərvərliyi, eləcə də Vətən müharibəsində Daxili Qoşunların ilk şəhidi kimi adını hərb tariximizə qızıl hərflərlə yazan yarımqrup komandiri gizir Sərxan Abdullayevdir.

Bir komandir kimi fəaliyyətinə gəlincə, deyə bilərəm ki, ən bacarıqlı yarımqrup komandirlərindən biri olub Sərxan. Qarşıya qoyulan bütün tapşırıqları vicdanla yerinə yetirib. Daxili Qoşunlar üzrə xüsusi təyinatlılar arasında keçirilən yarışlarda dəfələrlə dəstəmizi birinci yerə çıxarıb. Olduqca vətənpərvər, cəsur yarımqrup komandiri kimi şəxsi heyət üçün də hər zaman nümunə olub. Tabeliyindəki hərbi qulluqçulara qarşı tələbkarlığı ilə yanaşı, onlardan qayğısını da əsirgəməyib. Hər zaman şəxsi heyətin yanında olub. Elə döyüşdə də onları tək qoymadı.

İndiki kimi yadımdadır, sentyabrın 27-dən 28-ə keçən gecə, döyüşöncəsi Camışdağ silsiləsindən Ömər yüksəkliyi istiqamətinə keçid vaxtı 39 dərəcə hərarətinin olması ilə əlaqədar bizim təkidimizə baxmayaraq, Sərxan qəti şəkildə şəxsi heyətlə birgə hərbi əməliyyatlarda iştirak edəcəyini bildirdi və hərəkətə başladı. Bu vaxt mən onu yanıma çağırıb: "Sənin qızdırman var, xəstəsən, hərarətin yüksəkdir. Burda bizi gözlə, hələlik irəliyə getmə" – dedim. Sərxan narazı halda: "Cənab mayor, dəstəmiz döyüşə gedir. Siz mənim yerimdə olsaydınız getməzdiniz?" – deyə sual verdi. Mən cavabımda: "Əlbəttə, mən getməliyəm" dedim. O da qəti şəkildə: "Mən də getməliyəm. Mən də komandirəm. Mənim də şəxsi heyətim var" - deyə fikrini bitirdi və birinci qrupla birgə hərəkətini davam etdirdi. Bu vaxt hər birimiz onun necə vətənpərvər döyüşçü olduğunun bir daha şahidi olduq...".

**28 sentyabr 2020-ci il...** Kəlbəcər istiqamətində gedən döyüş Sərxanın son döyüşü oldu. Gizir S.Abdullayevlə eyni qrupun tərkibində bu hərbi əməliyyatlarda yaxından iştirak etmiş "Qartal" xüsusi təyinatlı dəstəsinin cəsur hərbi qulluqçuları - baş çavuşlar Əlvan Hüseynov, Samir Yusibov, Rasim Tahirov və çavuş Şıxəli Məmmədovun qeyd etdikləri kimi, tabeliyində olan şəxsi heyətlə birgə döyüşə qatılan igid komandir ermənilərin xeyli sayda canlı qüvvəsini cəhənnəmə vasil edib. Lakin döyüşün gedişində yaxınlığında düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində aldığı çoxsaylı qəlpə yarasından gizir Sərxan Abdullayev və onunla birgə vuruşan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hakim Baxışov qəhrəmancasına şəhid olublar.

Gizir S.Abdullayev 2020-ci il sentyabrın 28-də Qazax rayonunun Ağköynək kənd qəbiristanlığında dəfn olunub. Evli idi. Orxan və Turan adlı iki oğul əmanəti yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Abdullayev Sərxan Elxan oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qazaxlı şair Cavanşir Rüstəmin qələmə aldığı və şəhid silahdaşımızın qəhrəmanlığını tərənnüm edən şeirin iki bəndini sizlərə təqdim edirəm:



Vətənin qoynunda göz açan insan,
Hər zaman borcludur Vətənə bir can.
Sən də tarix yazdın qanınla, Sərxan!
Ucaldın şəhidlik zirvəsinə sən,
Səninlə fəxr edir bu Ana Vətən!

Olsa da yağılar hər sağın-solun,
Qəhrəmanı olmusan sən Murovdağın.
Başını dik tutsun qoy övladların,
Ucaldın şəhidlik zirvəsinə sən,
Səninlə fəxr edir bu Ana Vətən!

Bundan əlavə, "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayılın 2021-ci ildə işıq üzü görən "Qanları ilə dastan yazanlar" adlı kitabında yer alan "Biz qisası övladlarımıza qoymamalıyıq" başlıqlı məqaləsində şəhid S.Abdullayevin həyat və döyüş yolu geniş işıqlandırılıb.

Şəhid gizirimizin atası Elxan Abdullayev Birinci Qarabağ müharibəsi veteranı, eyni zamanda ehtiyatda olan gizirdir. Telefon vasitəsilə əlaqə saxlayıb, vətənpərvər ruhda böyüdüb tərbiyə etdiyi qəhrəman övladı barədə xatirələrini qələmə almaq istədiyimi bildə, bir ata kimi övladları ilə hər zaman qürur duyduğunu dedi: "Sərxan hərbi formanı səliqəli şəkildə elə geyinərdi ki, üzərində bir dənə də ləkə və qırışıq olmazdı. Hərbi formanı daşımaq onun üçün sanki toy-bayram idi. O dərəcədə hərbçi peşəsini sevərdi. Axı başqa cür də ola bilməzdi. Çünki gözünü açıb hərbi formanı görmüşdü. Hərbçi peşəsinə bağlılıq onda uşaq yaşlarından yaranmışdı.

Hələ kiçik yaşlarında olanda onu tez-tez özümlə hərbi hissəyə aparırdım. Qərargahda döyüş bayrağının yanında silahla dayanan əsgərə, şəxsi heyətə, silah və texnikalara elə diqqətlə baxardı ki...".

Bu arada qəhərdən bir az söhbətə ara verən Elxan dayı tez də özünü toparlayaraq, Sərxanla bağlı xatirələrini yenidən dilə gətirir: "Olduqca vətənpərvər oğul idi.

Özünə yeni mobil telefon almışdı. Telefonunda ermənilərin Cıdır düzündə qol açıb rəqs etmələrinin videosunu izləməsi ona çox pis təsir etmişdi. Düşmənin bu mənfur hərəkətinə necə əsəbləşmişdisə, təzə aldığı telefonu divara çırpıb qırıq-qırıq etmişdi.

Nə deyim? Bir ata kimi övlad itkisi mənim üçün nə qədər ağır olsa da, şəhid atası adını daşımaq bir o qədər qürurvericidir. Digər oğlum Elman da Vətən müharibəsi iştirakçısıdır. Övladlarımın vətənpərvərliyi ilə fəxr edirəm".

Onu da qeyd edim ki, Sərxanın qardaşı Elman da hərbçidir. "Kapitan" hərbi rütbəsində olan E.Abdullayev Azərbaycan Silahlı Qüvvələrinin zabiti kimi 44 gün davam edən Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq və şücaətinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib. Bundan əlavə, şəhidimizin bibisi oğlu, qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq xidmət edən əsgər Arif Tağıyev də Vətən müharibəsi qazisidir.

Sonda Respublika Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin çıxışlarının birində şəhidlər barədə səsləndirdiyi çox dəyərli sözləri qeyd etmək istəyirəm: "Hər bir şəhid xalqın unudulmaz qəhrəmanıdır".

Vətən uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Sərxan kimi oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# "TORPAQLARIMIZI İŞĞALDAN AZAD EDƏNLƏRİN SIRASINDA OLMAQ QÜRURLUDUR"

Vətən müharibəsi zamanı məcburi köçkün ailələrindən olan, doğulduqları torpaqların həsrəti ilə yaşayan hərbi qulluqçular da döyüş əməliyyatlarında fəal iştirak etmiş və üzərilərinə düşən vəzifələri şərəflə yerinə yetirmişlər. Füzuli rayonundan məcburi köçkün gizir Şiraz Həsənov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsində igidlik göstərib. Birinci Qarabağ müharibəsi zamanı ailəsini doğma torpaqdan didərgin salan düşməndən intiqamın alınacağı günü Şiraz səbirsizliklə gözləyib.

Birinci Qarabağ müharibəsinin iştirakçısı olan atası Elburus Həsənov, dayısı İsmayıl Həsənovun döyüş yolunu Şiraz şərəflə və ləyaqətlə davam etdirib.

1983-cü il aprelin 26-da Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olan hərbi qulluqçumuzun xidmət yolu zəngin və çoxşaxəlidir. O, 2001-ci ilin oktyabr ayından 2003-cü ilin aprel ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 5 ilə yaxın daxili işlər orqanlarında polis serjantı kimi xidmət edib. Daxili Qoşunlarda hərbi xidmətə 2008-ci ilin aprel ayından 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində başlayıb. 2012-ci ilin avqust ayında müaviləsinin vaxtı bitən qazimiz bir il Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində mühafizəçi vəzifəsində işləyib.

Xüsusi təyinatlıların sıralarında xidmət etmək onun uşaqlıq arzusu olduğuna görə yenidən, 2013-cü ilin noyabr ayında 67987 saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində yarımqrup komandiri vəzifəsində xidmətə qəbul olunub. 2016-cı ilin noyabr ayında isə 12318 saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində eyni vəzifəyə keçirilib.

Vətən müharibəsinədək olan dövrdə gizirimiz 3-cü və 2-ci dərəcəli "Qüsursuz xidmətə görə" medalları, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 20 illiyi" yubiley döş nişanı ilə təltif olunub.





Bir çox tədris kursunda təhsil alan qazimiz vaxt keçdikcə peşəkarlıq baxımından daha da püxtələşib. 12318 saylı hərbi hissədə "Yarasa" şərti adı daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Zəfər" ordeni və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmiş polkovnik-leytenant Anar Rizvanov dəstədə yarımqrup komandiri kimi xidmət etmiş gizir Ş.Həsənovun qardaş Türkiyə Respublikasında keçdiyi kurslarda qazandığı təcrübə, habelə yiyələndiyi biliklərdən müharibədə məharətlə bəhrələndiyini, düşmənə qarşı cəsurcasına vuruşduğunu, ümumilikdə, onun öz hərbçi bacarığı, müsbət şəxsi keyfiyyətlərinə görə silahdaşları arasında hörmət qazandığını vurğuladı.

27 sentyabr 2020-ci il tarixində Azərbaycan Ordusunun Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində qazimizin anadan olduğu Füzuli rayonunun Qaraxanbəyli kəndinin azad edilməsi döyüşlərə qatılan gizirimizdə ruh yüksəkliyi yaradıb. Döyüş yolunun sonu qələbə ilə yekunlaşsa da, həmin yolun çətinliklərini, ağrı-acılarını o heç vaxt unutmayacaq. Əvvəlcə Cəbrayıl, Füzuli rayonlarına mövqelərimizin müdafiəsi və ermənilərin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə tapşırıqları yerinə yetirən qazimizin daxil olduğu qrup sonra Şuşaya doğru istiqamət alıb.

Döyüşçülərimiz Şuşaya meşə və dağlıq ərazidən keçərək həmlə etmişlər. Onlar Hadrutdan Şuşa istiqamətində hərəkət edərkən meşədə düşmənin minaatanlardan atəşinə məruz qalıblar. Burada bir nəçə nəfər hərbi qulluqçumuz şəhid olub və yaralanıb. Şiraz yaralanmış hərbi qulluqçularımıza ilkin tibbi yardım göstərib, onlara ağrıkəsici iynə vurub, sarğı və jqutla qanaxmalarını kəsməyə çalışıb.

Şiraz bildirdi ki, xidmət etdiyi hərbi hissənin bu müharibədə ilk şəhidi əsgər Nəzir Osmanovdur, ona ilk tibbi yardım göstərilməsinə baxmayaraq, başından aldığı qəlpə yarasından dünyasını dəyişib.

Mübarizə əzmi qırılmayan hərbi qulluqçularımız yaralı və şəhidlərin olmasına baxmayaraq, "irəli" əmri ilə düşmənin üstünə şığıyıblar. 2020-ci il noyabr ayının 4-də Şirazın daxil olduğu və digər qruplar Şuşa-Laçın yolu üzərindəki yüksəklikdə yerləşən düşmən postlarını alaraq, Şuşaya gedən yolu nəzarətə götürüblər. Tapşırığa əsasən, Şuşa-Laçın yolunun müdafiəsini digər qruplara verib, Şuşa-Xankəndi yolu istiqamətində irəliləyiblər. Onlara Şuşadan Xankəndiyə gedən yolu nəzarətə götürmək və Pənahəli xan qalası tərəfdən Şuşaya daxil olmaq tapşırığı verilib.

Qazimiz noyabrın 5-dən 8-nə kimi Şuşa ətrafında meşə və dərələrdə, Şuşa-Xankəndi yolunda gərgin döyüşlərin getdiyini bildirdi. Burada düşmənin çoxlu sayda texnikası və şəxsi heyəti məhv edilib. O, döyüşçü yoldaşının ölümdən qurtardığı məqam barədə də danışdı. Tapşırığa əsasən, pusqu qrupuna verilən gizir Ş.Həsənov və 12318 saylı hərbi hissənin xüsusi təyinatlısı, pulemyotçu baş çavuş Cavid Mahmudov 25033 saylı hərbi hissənin xüsusi təyinatlıları ilə birlikdə Xankəndidən Şuşaya gələn yolu bağlamalı idilər. Şiraz söylədi ki, Xankəndi istiqamətindən düşmən tanklardan və müxtəlif növ artilleriya ilə bizim qüvvələri atəşə tuturdu. Düşmən hiylə işlədərək, tankın içinə 2 nəfər diversant yerləşdirməklə bizim pulemyotçunun olduğu atəş nöqtəsini susdurmaq istəyirdi. Tankdan düşən diversantlardan biri baş çavuş C.Mahmudova yaxınlaşdığını görür. Onu zərərsizləşdirmək üçün Şiraz düşməni dəqiq nişan alıb avtomatı ilə atəş açaraq məhv edir. Beləliklə, baş çavuş C.Mahmudovu düşmən gülləsinə tuş gəlməkdən qurtarır.

Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunan yaralı hərbi qulluqçularımızla görüş zamanı 25033 saylı hərbi hissənin xüsusi təyinatlısı çavuş Nicat Əlizadə (hazırda polis orqanında xidmətini davam etdirir) mənimlə söhbətində Şirazın qorxmazlığı ilə bərabər, həmçinin, döyüşçü yoldaşlarına münasibətdə yardımsevərliyini vurğuladı: "Noyabr ayının 6-sı Şuşa-Xankəndi yolunda düşmənin tankdan atəşi nəticəsində mərmi yanımıza düşmüşdü. Mən özümü qorumaq üçün səngərə tullanarkən qəlpə mənim sol əlimin 2 barmağını apardı, əlimdəki silahı isə 2 yerə böldü. Mənə dərhal Şiraz ürək-dirək verərək ilkin tibbi yardım göstərdi. Qanaxmanı dayandırmaq üçün qolumu jqutla möhkəm bağladı, sonra barmaqlarımın parçalanmasını görməyim deyə əlimi tənzif̧lə sardı".

Qazimiz noyabr ayının 7-si Pənahəli xan qalasında 120 mm-lik minaatan mərmisinin partlaması nəticəsində əlindən və qolundan çoxlu sayda qəlpə yarası alıb. Lakin buna baxmayaraq, yaralı halda həmin gün axşama qədər döyüşçü yoldaşları ilə birlikdə döyüşü davam etdirib. Şiraz 12318 saylı hərbi hissənin xüsusi təyinatlıları kapitan Ramin Rəhimov və çavuş Elvin Məmmədovun ona zəruri ilkin tibbi yardım göstərdiklərini minnətdarlıqla söylədi.

Hərbi qulluqçumuz noyabrın 8-i sanitar maşını ilə Hadruta, sonra Füzuli Rayon Xəstəxanasına aparılıb. Daha sonra, noyabrın 9-u müalicəsini davam etdirmək üçün Daxili Qoşunların Hərbi Qospitalına gətirilib.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə gizir Şiraz Həsənov "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

İki övlad atası olan Şirazın müharibənin od-alovundan keçərək ailəsinin başına dönməsi doğmaları üçün böyük sevincdir.

**kapitan Sadıq Rəfiyev**

# DÜŞMƏNİMİZİN XİSLƏTİ: MƏKR, SAXTAKARLIQ, İŞĞALÇILIQ, MİLLİ VƏ DİNİ DÖZÜMSÜZLÜK, BARBARLIQ...

Dünya tarixində dövlətlər və xalqlar arasında düşmənçiliyə dair saysız-hesabsız fakt qeydə alınıb. Düşmənçiliyin müxtəlif səbəbləri olduğu kimi, düşmənlərin xarakterik keyfiyyətləri də fərqlidir. Əlbəttə, ayrı-ayrı dövlətlərin və xalqların münasibətlərinin düşmənçilik həddinə gəlib çatması faciəvi bir gerçəklik olsa da, bu məsələdə kimin düşmənçiliyi başlatdığı, öz hərəkətləri ilə buna təkan verdiyi, sülh əvəzinə müharibə seçimi etdiyinin ayırd olunması obyektivlik naminə vacib məqamdır.

Azərbaycanın düşməni hamıya bəllidir. Ölkəmizə hərbi təcavüz etmiş, bizim ərazimizdə etnik separatizm ocağını alovlandırmış, həmvətənlərimizi soyqırıma məruz qoymuş, habelə qaçqın və məcburi köçkün vəziyyətinə salmış Ermənistan sülh əvəzinə müharibəni seçmiş, düşmənçiliyi başlatmış dövlətdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Ermənistan dövlətinin faşist ideologiyası barədə bunları deyib: "Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik".

Ermənistanın hazırda yerləşdiyi coğrafi ərazi tarixən ona məxsus olmayıb, xalqımızın qədim yurd yerlərindən, üzərində onun izləri hələ də qalan obalarından biridir. Xarici havadarları ermənilərə həmişə özgəsinin torpağında məskunlaşdırıblar. Torpaq və himayə vədi əvəzində ermənilərdən neçə əsrdir ki, İslam və Türk dünyaları əleyhinə geosiyasi məqsədlər üçün istifadə olunub. Belə bir riyakar siyasət məğzi dəyişmədən, yeni formatlarda bu gün də davam etdirilir.

Özgənin torpağından bəhrələnən ermənilərə vətən hissi, ana yurdu duyğusu yaddır. Onlar gəlmə olduqları torpağa heç vaxt can yandırmayıblar, həmişə yağmalamaq üçün yeni-yeni ərazilərə göz dikiblər. İşğal etdikləri və sonucda qovulduqları yerlərdə "yandırılmış torpaq" cinayətləri ermənilərin nişanəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev öz çıxışlarında erməni vandalizminin mahiyyətini dəfələrlə ifşa edib: "Onlar hesab edirdilər ki, bütün evlər yerlə yeksan edilərsə, azərbaycanlılar o torpaqlara qayıtmayacaqlar. Ermənilər hesab etmirdilər ki, Azərbaycan o faciədən sonra ayağa dura biləcək, möhkəmlənə biləcək, zəngin təbii ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edib, ölkəmizi inkişaf etdirə biləcək, bu torpaqları, əraziləri bərpa edə biləcək".

Bu toplum tarixdə öz saxtakarlığı və fitnələri ilə ad çıxarıb. İstifadə etdikləri əlifba belə oğurluqdur. Artıq bu məsələ ilə bağlı ortaya çıxan bir sıra tədqiqatlarda erməni əlifbasındakı hərflərin Efiopiya (Həbəşistan) əlifbasından mənimsənildiyi göstərilir.





Dünyada xristian dinini ilk qəbul edən xalqlardan biri olduqları barədə də ermənilər mif yaradıblar və bu yalanı beynəlxalq ictimaiyyətə sırımaq üçün uzun illərdir təbliğat aparırlar. Halbuki, xristianlığa dair çoxşaxəli informasiya qaynaqlarında bu toplumun dindarları və tarixçilərinin iddiaları öz təsdiqini tapmır. Özü də ermənilərin qədim alban kilsələrinə yiyələnərək bu məbədləri özününküləşdirmək, ilk xristian dövlətlərindən biri olmuş Qafqaz Albaniyasına aid memarlığı, əlyazmaları, sənətkarlıq nümunələrini saxtalaşdırmaq yönündə atdıqları addımlar təkzibedilməz faktlarla sübut olunub və ifşa edilib.

Ümumiyyətlə, erməni saxtakarlığında uydurulan miflər xüsusi yer tutur. Tarixdə guya "Böyük Ermənistan" dövlətinin mövcud olduğu barədə müxtəlif kürsülərdən səsləndirdikləri, kitablarda əks etdirdikləri dezinformasiya isə erməni mifologiyasının əsas tezisidir. Həmin tezisə görə, indiki Ermənistan dövləti "Böyük Ermənistan"ın kiçik bir hissəsidir və ətraf ölkələrə qarşı açıq-aşkar ərazi iddiaları irəli sürülür. "Böyük Ermənistan"ın qondarma xəritəsinə ermənilər Azərbaycan, Türkiyə, İran, Gürcüstan və digər ölkələrin ərazilərini daxil edirlər. Saxta tarix üzərində şovinizm ideologiyasını formalaşdıraraq, nəsildən-nəslə öz törəmələrinə "milli müstəsnalıq" mifini aşılayırlar. Ermənistanın dövlət gerbində Türkiyə Cümhuriyyətinin ərazisində yerləşən Ağrı dağının (ermənilər onu "Ararat" adlandırırlar) təsviri verilib. Başqa dövlətin coğrafi məkanının təsvirini ermənilərin öz gerblərində əks etdirməsi beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır, habelə birmənalı şəkildə düşmənçilik hərəkətidir.

Məlum olduğu kimi, ermənilər özlərini dünyaya guya türklər tərəfindən soyqırıma məruz qalan millət kimi təqdim edirlər. Bu "soyqırım"ın 1915-ci ildə törədildiyini hər il aprelin 24-də dünyaya car çəkirlər. Öz paytaxtlarında qondarma "soyqırım" abidəsi də ucaldıblar. Bir sıra ölkələrin parlamentlərində "erməni soyqırımı" haqqında qətnamələrin qəbuluna da nail olublar. Ancaq tarixi həqiqət ondan ibarətdir ki, məhz türk xalqları ermənilər tərəfindən soyqırıma məruz qalıblar. Birinci Dünya müharibəsi zamanı Osmanlı dövlətinin şərq əyalətlərində erməni silahlı dəstələri türk əhalisinə qarşı dəhşətli qətliamlar törədiblər. Təəbəsi olduqları Osmanlı dövlətinə qarşı müharibə vaxtı arxadan zərbə vuran ermənilərin bu kimi xəyanətkarlığının davamlı olmasına dair tutarlı sübutlar var.

1918-ci ilin mart ayında erməni silahlı dəstələri Azərbaycanın şəhər və kəndlərində soydaşlarımıza qarşı amansız soyqırım aktları həyata keçiriblər. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən bu qanlı cinayətlərin istintaqı aparılıb və ermənilərin vəhşilikləri barədə faktlar sənədləşdirilib. AXC-nin süqutundan sonra həmin hadisələri əks etdirən sənədlər "məxfi" qrifi altında xalqdan gizlədilib. Yalnız Azərbaycan müstəqil olduqdan sonra bu sənədlər işıq üzü görüb.

Öz cinayətlərini başqasının adına yazmaq, özlərini əzabkeş kimi göstərmək, gerçək tarixi təhrif etmək, dünyada güc sahibi olan qüvvələrə yarınmaq üçün oyunlar qurmaq, bəxşişlər vermək, mənfur planlarının icrasında lazım gələrsə, qadın faktorunu irəli çəkmək düşmənimizin xislətidir.

İkinci Dünya müharibəsi zamanı ermənilərin bir sıra hərbi və dövlət xadimləri faşistlərlə yaxından əməkdaşlıq ediblər. Onların arasında hərbi cinayətkar, erməni ideoloqlarından biri Qaregin Njde xüsusilə fərqlənib. Müharibədən sonra bu faşist əlaltısı həbs olunaraq 25 il müddətinə azadlıqdan məhrum edilib, şərəfsiz ömrünü cəzaçəkmə müəssisəsində başa vurub. Ermənistanın paytaxtında Q.Njdeyə heykəl qoyulub. Belə bir şəxsə heykəl ucaldan ermənilərin faşist ideologiyasının daşıyıcısı olduqlarına heç kəsdə şübhə yeri qalmır. Q.Njde, Drastamat Kanayan, Zori Balayan kimi daşnak təfəkkürlü erməni xadimlərinin əkdikləri nifrət, dözümsüzlük, təcavüzkarlıq, barbarlıq toxumu düşmənimizin həyata baxış sistemində, özünüdərkində dərin izlər qoyub. Erməni cəmiyyəti onu fəlakətlərə sürükləyən belə çürük ideoloji buxovlardan xilas ola bilmədi.

Münaqişəyə baiskar olan ermənilər onlara öz torpağında sığınacaq vermiş, həmişə insani münasibət göstərmiş, süfrəsinin çörəyini belə əsirgəməmiş azərbaycanlıların yaxşılıqlarının üstündən qara xət çəkdilər.

Birinci Qarabağ müharibəsində ermənilər xarici havadarlarının dəstəyi sayəsində, eləcə də Azərbaycanın irimiqyaslı müharibəyə hazır olmaması, zəif dövlətçiliyi, daxili ictimai-siyasi böhranla üzləşməsi, ordumuzdakı pərakəndəlik səbəbindən ərazimizin iyirmi faizini işğal etdilər. XX əsrin ən dəhşətli soyqırımlarından biri ermənilər tərəfindən işğal olunan Xocalıda baş verdi. Müharibə zamanı ermənilər uşaq, qoca, qadını fərq qoymadan hədəfə aldılar, dinc sakinləri əsir götürdülər, onlara işgəncələr verdilər. İtkin və əsir düşən soydaşlarımızın bir qisminin taleyi bu günədək məlum deyil.

Qədim diyarımız Naxçıvanı Ermənistan öz sərhədləri boyu ötən əsrin 90-cı illərinin əvvəllərindən bu günədək blokadada saxlayır. Bir neçə rayonumuzu sudan məhrum etmək üçün ermənilər bəzi çaylarımızın qarşısını kəsdilər, ələ keçirdikləri şəhər, qəsəbə və kəndlərimizi viran qoydular. Təbii sərvətlərimizi talan edib pul qazandılar. Məscidlərimizi dağıtdılar, donuz saxlanılan tövləyə çevirdilər. Toponimlərimizi dəyişdilər, abidələrimiz, qəbiristanlıqlarımız vandalizmə məruz qaldı.

Ermənilər bu müharibə vasitəsilə bizə ağır zərər vursalar da, ölkəmiz uzunmüddətli atəşkəs dövründə gücləndi, inkişaf etdi, Ermənistan isə inkişafdan qaldı, ildən-ilə geriləunder, özünü tükəndirdi. Onlar elə zənn edirdilər ki, uzun çəkən işğal dövründən sonra biz ərazi itkisi ilə barışacağıq. Sərsəm bəyanatlar verərək erməni siyasətçiləri Dağlıq Qarabağı Ermənistanın bir parçası hesab edirdilər. Sabiq erməni prezidentlərindən biri hətta demişdi ki, onlar Qarabağ məsələsində məqsədlərinə nail olublar, Ağrı dağı məsələsini həll etmək isə gələcək nəsillərin üzərinə düşür. Göründüyü kimi, erməni lovğalığı, ambisiyaları, xülyaları onları reallıqlardan xeyli uzaqlaşdırmışdı.

2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixlərini əhatə edən Vətən müharibəsində Azərbaycan Birinci Qarabağ savaşında başa çatdıra bilmədiyi mühüm missiyanı yerinə yetirdi - itirdiyimiz torpaqların erməni işğalında qalmasına son qoydu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətlə vuruşan Silahlı Qüvvələrimiz xalqımıza zəfər sevinci və qürurunu bəxş etdi. Müharibədə məğlub olan Ermənistanın mənfur planları da iflasa uğradı. İşğalçılığa, terrorçuluğa, şovinizmə söykənən dövlət siyasəti yürüdən Ermənistan uçuruma yuvarlanmağa məhkumdur.

**Yalçın Abbasov**

# NARKOMANİYA İLƏ MÜBARİZƏ APARMAQ HƏR BİRİMİZİN VƏTƏNDAŞLIQ BORCUDUR

Müasir dövrümüzdə hər birimizi düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün



narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yeni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində ölkəmizdə də məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə



dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş 16.08.2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məq-



sədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların Tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Gələcəyimizi məhvə aparan və "ağ ölüm" adlandırılan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### "Raytheon" Avstraliya ordusundakı NASAMS HHM sistemini təkmilləşdirəcək

"Raytheon Australia" şirkəti Avstraliya ordusundakı NASAMS Hava Hücumundan Müdafiə sistemini təkmilləşdirmək və təmir etmək üçün ölkənin Müdafiə Nazirliyi ilə müqavilə imzalayıb. "Ordu.az" saytı xəbər verir ki, bu barədə şirkətin mətbuat xidməti məlumat yayıb.



NASAMS Qərb bloku ölkələrinin tez-tez üstünlük verdiyi sistemdir. Mövcud AIM-120 AMRAAM, AIM-9X və bu yaxınlarda inkişaf etdirilən AMRAAM-ER raketlərindən istifadə edərək sistem qısa məsafədən orta məsafəyə qədər qorunmanı təmin edir.

### Çexiya ordusuna tezliklə "Toyota Hilux" pikapları tədarük ediləcək

Çexiya ordusuna "Toyota Hilux" pikap tipli maşınların tədarükü yay aylarında başlayacaq. "Ordu.az" saytı xəbər verir ki, bu barədə Çexiya Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, 1200 ədəd pikapın tədarükü edilməsi üçün müqavilə ötən ay imzalanıb.

"Toyota Hilux" Yaponiyanın "Toyota" şirkəti tərəfindən dizayn və istehsal edilən pikap tipli maşındır. Çexiya silahlı qüvvələrində istifadə edilən "Land Rover Defender" və UAZ-469-ları əvəz edəcək.



## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Baba Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı mayor Ramin Əliyevə **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin şəxsi heyəti kapitan Məhəmmədəli Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti əsgər Əhməd Tinətiyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000